**İbrahim QULİYEV** *

# SƏFƏVİ ALİMİ AĞA HÜSEYN XANSARİNİN HƏYATI VƏ ONUN HƏDİS FƏALİYYƏTİ

**Açar sözlər:** Ağa Hüseyn, fiqh, təfsir, hədis, fəlsəfə
**Key words:** Aga Hussein, fiqh, tafsir, hadeeth, philosophy
**Ключевые слова:** Ага Гусейн, фикх, тафсир, хадис, философии

Ağa Hüseyn bin Cəmaləddin Məhəmməd Xansari XVII əsr Azərbaycan Səfəvilər dövlətinin ən qüdrətli nümayəndələrindən biri olmuşdur. O, 1605-ci ildə İsfahan şəhərində anadan olmuş, kiçik yaşlarında ikən mükəmməl təhsil almış, ilahiyyat elmləri ilə yanaşı, fəlsəfə, tarix, astronomiya və s. dünyəvi elmlər sahəsində də görkəmli bir alim kimi tanınmışdır. Səfəvilər sarayında yüksək dövlət vəzifəsi – Şeyxülislam olan Ağa Hüseyn, eyni zamanda elm və təhsil işlərinə də rəhbərlik edər, mədrəsələr inşa etdirər, elmi-dini kitabların çap olunub tələbələrə paylanmasına xüsusi diqqət ayırarmış. Xatırladaq ki, Şeyxülislamlıq Səfəvilər dövlətində əhəmiyyətli dərəcədə dini qurumlardan biri olmuşdur. Bu vəzifəni tutan şəxsin qərargahı paytaxtda olsa da, onun digər şəhər və vilayətlərdə fəaliyyət göstərən şöbələri var idi. Xüsusilə də Məşhəd, Qum və Təbriz şəhərlərinin dini rəhbərləri dövlətdə yüksək səviyyəli vəzifəli şəxslər hesab edilirdi.

Bundan başqa, Səfəvilər dövlətində elm və mədəniyyət çox yüksək səviyyədə inkişaf etmişdir. XV əsrin sonunda Ərəb Yarımadasında və hətta bütün müsəlman dünyasından, o cümlədən Cəbəlülamil, Nəcəf və Bəhreyn kimi elmi-dini mərkəzlərdən Səfəvilər hakimiyyəti altında olan ərazilərə köçür və burada elmi-dini fəaliyyətlə məşğul olurdular. Bunlarla yanaşı, yerli alimlər də bu fəaliyyətdə ön sırada dayanırdılar. Bu alimlər içində müxtəlif elmlərin inkişafında da Azərbaycan alimlərinin müstəsna xidmətləri olmuşdur. Onlardan biri də yuxarıda qeyd etdiyimiz kimi, Ağa Hüseyn əl-Xansaridir. O, dinşünaslığın müxtəlif sahələri ilə yanaşı, fəlsəfə və astronomiya kimi elmlərlə də mükəmməl məşğul olan Ağa Hüseyn bir çox əsərlərin müəllifidir. Onun qələmə aldığı çoxsaylı əsəri İranın müxtəlif kitabxanalarında əlyazma halında saxlanmaqdadır. Ömrünü elmə həsr edən bu əvəzedilməz alim 1687-ci ildə İsfahan şəhərində vəfat etmişdir (1, 235). Onun mübarək cəsədi İsfahanda Baba Rüknəddin məqbərəsində dəfn edilmişdir. Süleyman şah Səfəvi (1666-1694) onun qəbri üstündə böyük bir məqbərə tikdirmişdir. O, öz dövründə fiqh, təfsir, hədis və fəlsəfə elmləri sahəsində öndər biri idi. Alimlərin avtobioqrafiyasını yazan bütün tədqiqatçılar onun elmi şəxsiyyətindən, xüsusilə də din elmləri sahəsində lider sayılacaq bir xüsusiyyətə malik olmasından yazırlar. Məhəmməd bin Məhəmməd əl-Ərdəbili "Camiür-rüvvat" adlı məşhur rical (avtobioqrafiya) əsərində yazır: "Ağa ləqəbi ilə məşhur olan Hüseyn bin Cəmaləddin Məhəmməd bin Həsən əl-Xansari öz dövrünün yeganəsi, tədqiqatçıların öndəri, filosofların sultanı, kəlam alimlərinin ən böyüyü idi. Bütün üstünlüklər onun şəxsiyyətində birləşmiş və onunla da sona çatmışdır. Onun qədir-qiyməti, şəni və əzəməti son zirvəyə yetişmişdir. O, dəqiq və humanitar elmlər sahəsində dolu bir dərya, düzgün nəzəriyyə sahibi, güvənilən, əmanətdar və ədalətli bir zat idi. Həmçinin o, yetim və miskinlər üçün pənahgah, onların ehtiyaclarını ödəməkdə səhlənkarlıq etməyən biri idi. Allah onun mükafatlarını versin" (1, 235).

Məhəmməd bin Həsən Hürr əl-Amili onun haqqında yazır: "Hüseyn bin Cəmaləddin Məhəmməd bin Həsən əl-Xansari fəzilət və üstünlüklər sahibi olan bir alim, filosofların filosofu, çox güvənilən və əmanətdar, üləmaların əllaməsi və öz əsrinin tayı-bərabəri olmayan birisi idi. Onun çoxlu sayda əsərləri vardır" (2, 101).

Mirzə Abdulla Əfəndi əl-Azərbaycani onun haqqında yazır: "Ustad tədqiqatçı, dəqiq rəy sahibi Hüseyn bin Cəmaləddin Məhəmməd bin Həsən əl-Xansari əl-İsfəhani fəzilətli əllamə, analitik dərrakəli alim, öz əsrinin bütün ustadların ustadıdır. Onun fəzilətlərini saymaqla bitməz. Ondan ustadlar dəqiq, humanitar və şəriətin əsasları elmlərini öyrənmişlər. Zəmanə onun kimi bir dindar, ona tay-bərabər olan birini görməmişdir. Dahi filosof Mir Damət onu bəşərin ustadı ləqəbi ilə adlandırmışdır. O, dəqiq elmləri Əmir Əbülqasim əl-Fəndərəski, humanitar elmləri isə Məhəmməd Tağı Məclisi kimi nəhənglərdən almışdır. O, ərəb və fars dillərində gözəl inşa və xətt sahibi, həmçinin mənalı şeirlər söyləyən biri idi. O, qeyri-adi hafizəyə və zəkaya malik, tədris zamanı əlinə heç bir kitab götürməyən, zəruri hallardan başqa heç vaxt danışmayan bir şəxs idi" (3, 57).

* **Quliyev İbrahim** - AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun tarix üzrə elmlər doktoru hazırlığı üzrə doktorantı, fəlsəfə üzrə fəlsəfə doktoru quliyev.ibrahim.78@mail.ru

Onun haqqında Məhəmməd Hüseyn Hairi Ələmi yazır: "Ağa Hüseyn Xansari, qədim və müasir dövr alimlərinin ən fəzilətlisi və üstünüdür. O, Süleyman Şah Səfəvinin dövründə öz zəmanəsinin güvənilən və ədalətli imamiyyə alimi idi" (4, 218).

Ona humanitar elmlər sahəsində, xüsusilə də hədisşünslıqla əlaqədar elmlərdə Məhəmməd Tağı bin Maxsud Əli Məclsi dərs demişdir. Hətta mənbələrə görə ona hədis rəvayət etmək səlahiyyətini Əllamə Məclisi Əvvəl verib (5, 14). Beləliklə Məhəmməd Tağı Məclisi onun daha çox fiqh və hədis elmləri sahəsində mütəxəssis olmasında rol oynamışdır.

Ağa Hüseyn Xansarinin fəlsəfə və məntiq elmləri sahəsindəki müəllimi isə İsfahan fəlsəfə məktəbinin banisi olmuş Mir Damət olmuşdur. Mir Damət Mir Məhəmməd Bağır əl-Hüseyni əl-Astarabadi (ö. 1631) İranda yetişən ensiklopedik alimidir.

O, Məşhəddə dayısı Əli və İzzəddin Hüseyn bin Əbdüssəməd əl-Amili kimi müəllimlərin nəzarətində yaxşı bir təhsil almışdı. Dəqiq və humanitar elmləri öyrənmək üçün böyük səy sərf etmişdi. Hələ tələbəlik illərində İbn Sinanın "əş-Şifa" və "əl-İşarat" kimi bir çox fəlsəfi əsərlərini oxuyub öyrəndi. Bundan sonra bir müddət Qəzvin və Kaşanda qalan Mir Damət İsfahana yerləşərək elmi fəaliyyətlərini burada davam etdirdi. I Sah Abbas və xələfi Şah Səfi ilə yaxşı münasibətlər qurdu. Müasiri Azərbaycan tarixşünası olan İskəndər Bəy Münşi 1616-cı ildə yazdığı "Aləm aranı Abbasi" adlı əsərində onun fəlsəfə, dil, riyaziyyat, tibb, fiqh, təfsir və hədis kimi bir çox elmdə müvəffəqiyyətli olduğunu yazaraq təlif etdiyi əsərlərə yer vermişdir. "Məcməuş-şüəra", "Riyazul -arifin" və "Atəşkədə" kimi əsərlərdə Mir Damətin İşraq abu-havasıyla yazdığı ərəbcə və farsça şeirlərinə yer verilmişdir. Ən böyük pərəstişkarlarından biri, Mahmud Ayaz adlı məsnəvinin yazıçısı olan çağdaşı Zülali Xansaridir.

Ağa Hüseyn Xansari dəqiq elmləri Əmir Əbülqasim əl-Fəndərəskidən və Məhəmməd Bağır Yəzdidən aldığı qeyd edilir. Xatırladaq ki, Məhəmməd Bağır Yezdi öz əsrində ustadı Şeyx Bəhaəddindən sonra islam dünyasının ən məşhur və görkəmli riyaziyyatçısı və astronomoyaçısı olub. Onun vəfat tarixi dəqiq olaraq bilinməsə də, 1637-ci ildən sonra vəfat etdiyi yazılır.

Həyatı haqqında qaynaqlarda az qala heç məlumat olmayan Məhəmməd Bağır bin Zeynəlabidin Yezdi I Şah Abbas və Şah Səfi dövrlərində Səfəvilərin klassik İslam riyaziyyatının son böyük nümayəndələrindən biridir. Bəzi qaynaqlarda Bəhaəddin əl-Amilinin (ö. 1622) şagirdi, bəzilərində isə müəllimi olaraq göstərilən Yezdi (4, 181). "Üyunul-hisab" adlı əsərində Qiyasəddin Cəmşid əl-Kaşinin "Miftahül-hisab"ına zəngin izahları ilə diqqət çəkir. Nə vaxt vəfat etdiyi bilinməsə də, "Üyunul-hisab"ı 1637-ci ildə tamamladığı və 1659-1664-ü illər arasında təlif edilən "Rəbiül-münəccimin" əsərində ondan rəhmətlə danışıldığına görə bu tarixlər arasındakı bir ildə vəfat etmiş olmalıdır (5, 436-438).

Onun riyaziyyata aid əsərləri aşağıdakılardır:

1. "Üyunul-hisab". Çox sayda əlyazma nüsxəsi olan əsər, hind-İran dünyası ilə birlikdə Osmanlılar tərəfindən də istifadə edilmişdir. Məhəmməd Bağır bin Mir Məhəmməd İsmayıl Xatunabadi (ö. 1715) tərəfindən farscaya tərcümə edilən əsəri Yezdinin nəvəsi Məhəmməd Bağır bin Məhəmməd Hüseyin 1695-ci ildə "Kifayətül-lübab li şərhi müşkilati Üyunil-hisab" adıyla şərh etmiş və bəzi mövzularda yeni fikirlərilə genişlətmişdir.
2. "Şərhi xülasətil-hisab". Bəhaəddin əl-Amilinin "Risaləti Bahaiyyə" adıyla da bilinən məşhur riyaziyyat kitabının şərhidir. Əsərin dərs kitabı olması səbəbiylə Amili tərəfindən qısaca incələnən mövzular Yezdinin şərhində detallı şəkildə ələ alınmışdır.
3. "Şərhul-məqalətil-aşirə min təhriri üsuli Uqlidis". Nəsrəddin Tusinin Evkilidin irrasional ədədlərin araşdırması olan "Üsuli-Uqlidis" əsərinə etdiyi təhririn onuncu məqaləsinin şərhidir.
4. "Şərhi mücməlil-üsul". Kuşyar bin Ləbbanın astrologiya mövzusundakı məşhur əsərinin şərhidir.
5. "Tühfətül-münəccimin". Astrologiya mövzusunda ümumi bir əsərdir.
6. "Mətləül-ənvar və mətləül-ənzar". Astronomiyaya dairdir.
7. "Mizanüş-şafa". Usturlab (astronomic cihazlar) haqqındadır.

Ağa Hüseyn Xansarinin çoxlu sayda tələbələri olmuşdur. Ən məşhur tələbələri isə iki oğlu və məşhur alimlər olan Ağa Camal və Ağa Rza, görkəmli hədisşünas və avtobioqrafçı Məhəmməd Saleh Xatunabadi, məşhur fəqih Seyid Nemətullah əl-Cəzairi, Mirzə Abdulla Əfəndi əl-Azərbaycani və başqalarını qeyd etmək olar (6, 218).

Ağa Hüseyn Xansarinin yazdığı əsərlərdən bəziləri bunlardır:

1. "Səhifətu-Səccadiyyə" (İmam Səccadın "Səhifə" əsəri).
2. "Tərcume Qurane-Kərim" (Qurani-Kərimin tərcüməsi).

3. "Təfsire sureyi-Fatihə" (Fatihə surəsinin tərcüməsi).
4. "əl-Cəbr vəl-ixtiyar" (Fatalizm və özbaşnalıq).
5. "Tarixül-vəfayatil-üləma" (Alimlərin vəfat tarixləri).
6. "əl-Cüz əlləzi la yətəcəzza" (Hissələrə bölünməyən hissə).
7. "Haşiyətu həyatiş-şifa" (Həyatüş-şifa əsərinə haşiyə).
8. "Həvlə şərhi işarati Xacə" (Təcridi-şərhi Quşçu) (Əllamə Quşçunun Nəsrəddin Tusinin "Təcrid" əsərinə yazdığı "Şərhüt-təcrid" əsəri haqqında).
9. "Şərhe lümə" ("Lümə" əsərinin şərhi).
10. "Mühakimati Qütbəddin ər-Razi" (Qütbəddin ər-Razinin mühakimələri.
11. "Məalimül-üsul" (Metodologiyanın qaydaları).
12. "Şərhi haşiyə İbn Hacib" (İbn Hacibin "Haşiyə" əsərinin şərhi).
13. "Haşiyə ilahiyyati-şifa" (İbn Sinanın "Şifa" əsərinin ilahiyyat bölməsinin şərhi).
14. "Şərhe heyəte farsiye Quşçu" (Quşçunun şərhi).
15. "Məşariquş-şumus fi şərhid-durus" (Biliklərin şərhində Günəşin parıltısı) (7, 14).

Beləliklə, ümidvarıq ki, öz dövründə fəlsəfə və kəlam alimlərinə liderlik etmiş (8, 286-287) Ağa Hüseyn Xansari kimi bir elm nəhənginin yaradıcılığı tədqiq ediləcək və ona doğru-düzgün qiymət veriləcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Məhəmməd bin Məhəmməd əl-Ərdəbili. Camiür-rüvvat. 7 cilddə. I cild. Beyrut, 1403/1983.
2. Məhəmməd bin Həsən Hürr əl-Amili. Əməlül-amal. 2 cilddə. II cild. Bağdad, 1385 h/q.
3. Mirzə Abdulla Əfəndi əl-Azərbaycani. Riyazül-üləma. 7 cilddə. V cild. Qum, 1401 h/q.
4. Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. IX cild. Beyrut, 1403/1983.
5. Əbülqasim Qurbani. Zindeginame riyazidanane dövre islami. Tehran, 1365 h/ş.
6. Əllamə Məhəmməd Hüseyn Hairi Ələmi. Dairətül-məarif. 18 cilddə. II cild. Beyrut, 1413/1993.
7. əl-Mühəqqiq əl-Xansari. Rövzatül-cənnat. 7 cilddə. I cild. Tehran, 1347/1928.
8. Abdulla Nemət. Fəlasifətüş-şiə. Beyrut, 1987.






## THE SAFAVID SCHOLAR AGHA HUSSAIN HANSARS LIFE AND AVTIVITY SUMMARY


Aga Hussein bin Djamaladdin Muhammad Hansari was born in 1605. This invaluable scientist who devoted his life to science died in 1687 in Isfahan. His blessed body was buried in the mausoleum of Baba Ruknadin in Isfahan. Suleiman Shah Safavi (1666-1694) built a large mausoleum over his grave. At one time he was one of the leaders in the field of fiqh, tafsir, hadeeth and philosophy. All researchers who write autobiographies of scientists wrote about his scientific personality, especially about the ability to be a leader in the field of religious sciences.


## ЖИЗНЬ СЕФЕВИДСКОГО УЧЕНОГО АГА ХУСЕЙН ХАНСАРИ И ЕГО ХАДИСОВЕДЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ РЕЗЮМЕ


Ага Хусейн бин Джамаладдин Мухаммад Хансари родился в 1605 году. Этот выдающийся ученый, посвятивший всю свою жизнь науке, умер в 1687 году в Исфахане. Его благословенное тело было погребено в мавзолее Бабы Рукнаддина в Исфахане. В период Сулеймана Шаха Сефеви (1666-1694) над его могилой был построен большой мавзолей. В свое время он был одним из лидеров в области фикха, тафсира, хадиса и философии. Все исследователи, которые пишут автобиографии сефевидских ученых, отмечают его обширные знания в области религиозных наук.